Müşavirədə təhsil və maliyyə nazirliklərinin rəhbər işçiləri, Dünya Bankının Azərbaycandakı nümayəndəliyinin, ali və orta ixtisas məktəblərinin rəhbərləri iştirak ediblər.

Müşavirəni təhsil naziri Misir Mərdanov açıb və "Beynəlxalq mühasibat standartlarına keçidlə əlaqədar ali və orta ixtisas təhsili müəssisələri qarşısında duran vəzifələr" mövzusunda təqdimat edib. Nazir bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin 7 fevral 2005–ci il tarixli fərmanı ilə təsdiq olunmuş "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycanda milli mühasibat uçotu standartlarının hazırlanması nəzərdə tutulub. Bu sahədə kadr hazırlığının təkmilləşdirilməsinin zəruriliyindən söz açan təhsil naziri daha sonra mühasibat uçotu sahəsində mütəxəssis hazırlığının mövcud vəziyyəti barədə məlumat verib. Nazir "Mühasibat uçotu və audit" ixtisası üzrə təhsil proqramlarından, mühasibata aid fənlərin tədrisindən, digər ixtisaslarda "Mühasibat uçotu və audit" fənninin tədrisi vəziyyətindən danışıb, mühasibata aid fənləri tədris edən müəllimlər haqqında statistikanı müşavirə iştirakçılarının diqqətinə çatdırıb. Misir Mərdanov çıxışında milli mühasibat uçotu standartlarına keçidlə bağlı qarşıda duran vəzifələrə də toxunub.

Maliyyə naziri Samir Şərifov "Beynəlxalq mühasibat uçotu standartlarına keçidlə əlaqədar maliyyə hesabatlarının tətbiqi və maarifləndirmə işinin təşkili" mövzusunda təqdimat edib. Nazir qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli iqtisadi islahatlar sayəsində beynəlxalq tələblərə cavab verən mühasibat uçotu sisteminin təkmilləşdirilməsi və yenidən qurulması ilə bağlı davamlı addımlar atılır. Maliyyə naziri islahatların məntiqi davamı kimi qanunvericilik bazasının təkmiləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb. Maliyyə hesabatlarının beynəlxalq standartlarının və milli mühasibat uçotu standartlarının tətbiqinin məqsədlərindən, yeni mühasibat uçotu sisteminin daha sürətli tətbiqi və əhatə dairəsinin genişləndirilməsi istiqamətində mövcud olan problemlərdən və digər məsələlərdən danışan nazir qeyd edib ki, mühasibat uçotu və audit sahəsində qısa müddətdə konseptual yanaşma əsasında vahid təhsil sisteminin yaradılması və müvafiq metodoloji bazanın və müvafiq tədris materiallarının hazırlanması zəruridir. Samir Şərifov bununla bağlı mövcud problemlərin həlli istiqamətində həyata keçirilməsi nəzərdə tutulan digər işlərdən də söz açıb və bütün bu tədbirlərin həyata keçirilməsində Təhsil Nazirliyinin rolunu qeyd edib.

Dünya Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Qriqori Yedjeyçak "Korporativ və büdcə sektorunda hesabatlılıq layihəsinin məqsəd və vəzifələri" mövzusunda çıxış edərək fikirlərini bildirib.

Sonra mövzu ətrafında geniş müzakirələr aparılıb. Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Şəmsəddin Hacıyev, Azərbaycan Universitetinin rektoru Akif Musayev, Xəzər Universitetinin rektoru Hamlet İsaxanlı, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Bakı Biznes Universitetinin rektoru İbad Abbasov müzakirə olunan məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

Müşavirədə qeyd olunan məsələlərin operativ həlli ilə əlaqədar birgə işçi qrupunun yaradılması, işçi qrupuna təhsil və maliyyə nazirliklərində, Dünya Bankında və ali təhsil müəssisələrində çalışan yüksək ixtisaslı mütəxəssislərin cəlb olunması qərara alınıb.